**Hüquqşünas ixtisası üzrə bakalavr pilləsində tədris olunan**
**"İnsan hüquqları" fənni üzrə**
**nümunəvi sillabus**

**Fənn üzrə saat sayı - 60**
**(40 saat - mühazirə; 20 saat - seminar)**

**Kursun məzmunu**

| No | Mövzu və alt mövzular | Mühazirə/seminar üzrə saatlar |
|---|---|---|
| **1.** | <u>İnsan hüquqlarının anlayışı, mahiyyəti, əsas xüsusiyyətləri, inkişaf tendensiyaları</u><br><br>"İnsan hüquqları" termininin hüquqi və fəlsəfi mənası. İnsan hüquqlarının vətəndaş hüquqları ilə əlaqəsi. Təbii hüquq nəzəriyyəsi və pozitiv hüquq yanaşması. "İnsan ləyaqəti" anlayışının rolu. İnsan hüquqlarının universal xarakteri. Hüquqların dövlət tərəfindən tanınması və qorunması. İnsan hüquqları və dövlət suverenliyi arasında balans. Hüquq və azadlıqların sosial dəyər kimi mahiyyəti. Universallıq. Ayrılmazlıq (inalienability). Bölünməzlik və qarşılıqlı asılılıq. Bərabərlik və ayrı-seçkiliyin yolverilməzliyi. Hüquqlar və vəzifələr arasındakı əlaqə. Antik dövrdə insan və ədalət anlayışları. Təbii hüquq məktəbi (Lokk, Jan Jak Russo və s.). ABŞ Müstəqillik Bəyannaməsi və Fransa İnsan və Vətəndaş Hüquqları Bəyannaməsi. II Dünya müharibəsindən sonra beynəlxalq insan hüquqları sisteminin formalaşması. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin rolu. I nəsil: mülki və siyasi hüquqlar. II nəsil: iqtisadi, sosial və mədəni hüquqlar. III nəsil: həmrəylik (kollektiv) hüquqları. Mədəni relativizm vs. universallıq. | mühazirə - 4 saat<br>seminar - 2 saat |
| **2.** | <u>Mülki və siyasi hüquq və azadlıqlar. Bu sahədə dövlətin öhdəlikləri</u><br><br>Mülki və siyasi hüquqların tarixi formalaşması, bu hüquqların I nəsil hüquqlar kimi xarakteristikası. Mənfi və müsbət öhdəliklər kontekstində bu hüquqların xüsusiyyətləri. Digər hüquq kateqoriyaları ilə qarşılıqlı əlaqə.<br><br>*Əsas mülki hüquq və azadlıqlar*: yaşamaq hüququ; işgəncənin və qeyri-insani rəftarın qadağan olunması; şəxsi azadlıq və | mühazirə - 4 saat<br>seminar - 2 saat |

| | | |
|---|---|---|
| | toxunulmazlıq hüququ; şəxsi və ailə həyatına hörmət hüququ; mənzil toxunulmazlığı; hərəkət azadlığı.<br><br>*Əsas siyasi hüquq və azadlıqlar:* fikir, vicdan və din azadlığı; ifadə azadlığı; dinc toplaşmaq azadlığı; birləşmək azadlığı (assosiasiya hüququ); seçki hüququ və siyasi iştirak hüququ; dövlət idarəçiliyində iştirak hüququ.<br><br>*Prosessual təminatlar (ədalətli məhkəmə hüquqları):* ədalətli məhkəmə araşdırması hüququ; təqsirsizlik prezumpsiyası; müdafiə hüququ; müstəqil və qərəzsiz məhkəmə prinsipi; hüquqi müəyyənlik və qanunilik prinsipi.<br><br>*Dövlətin insan hüquqları sahəsində öhdəlikləri:* hörmət etmək öhdəliyi (obligation to respect): dövlətin hüquqlara birbaşa müdaxilə etməməsi; əsassız həbsin qadağan edilməsi; senzuranın yolverilməzliyi.<br><br>*Qorumaq öhdəliyi (obligation to protect):* dövlətin üçüncü şəxslərin müdaxiləsindən fərdləri qoruması (məsələn, məişət zorakılığına qarşı müdafiə; nifrət nitqinə qarşı tədbirlər; şəxsi məlumatların qorunması).<br><br>*Təmin etmək öhdəliyi (obligation to fulfil):* hüquqların həyata keçirilməsi üzrə dövlətin şərait yaratması; effektiv məhkəmə sistemi; pulsuz hüquqi yardım; seçkilərin ədalətli təşkili. | |
| **3.** | <u>İqtisadi, sosial və mədəni hüquqlar. Bu sahədə dövlətin öhdəlikləri</u><br><br>*İqtisadi, sosial və mədəni hüquqların (İSMH) anlayışı və mahiyyəti.* İSMH-nin II nəsil hüquqlar kimi xarakteristikası. Sosial dövlət prinsipi ilə əlaqə. Bu hüquqların “proqram xarakterli” olması barədə mübahisələr. Mülki-siyasi hüquqlarla qarşılıqlı asılılıq.<br><br>*Əsas iqtisadi hüquqlar:* əmək hüququ və ədalətli əmək şəraiti; işsizliyə qarşı müdafiə; həmkarlar ittifaqlarına birləşmək hüququ; tətil hüququ; mülkiyyətlə əlaqəli sosial aspektlər.<br><br>*Əsas sosial hüquqlar:* sosial təminat hüququ; mənzil hüququ; yetərli həyat səviyyəsi hüququ (qida, geyim, mənzil); sağlamlıq hüququ; sosial xidmətlərə çıxış.<br><br>*Əsas mədəni hüquqlar:* təhsil hüququ; mədəni həyatda iştirak hüququ; elmi nailiyyətlərdən faydalanmaq hüququ; müəlliflik hüquqları ilə əlaqə; azlıqların mədəni hüquqları.<br><br>*Dövlətin İSMH sahəsində öhdəlikləri:* hörmət etmək öhdəliyi (mövcud hüquqlara müdaxilə etməmək, məsələn: təhsilə əsassız maneələrin yaradılmaması); qorumaq öhdəliyi | mühazirə - 2 saat<br>seminar - 1 saat |

| | | |
|---|---|---|
| | (hüquqların pozulmasının qarşısını almaq; işəgötürən tərəfindən işçinin əmək hüquqlarının pozulmasına nəzarət; kirayə bazarında istismarın qarşısının alınması) təmin etmək (yerinə yetirmək) öhdəliyi (hüquqların reallaşması üçün aktiv tədbirlər görmək (məktəblərin və xəstəxanaların açılması; sosial müavinət sisteminin qurulması; əmək bazarı proqramları; sağlamlıq imkanları məhdud olan şəxslər üçün əlçatan mühit).<br><br>*“Proqressiv reallaşdırma” prinsipi (*resurslardan asılılıq məsələsi; minimum əsas öhdəliklər (minimum core obligations); ayrı-seçkiliyin dərhal qadağan olunması; büdcə siyasətinin insan hüquqları prizmasından qiymətləndirilməsi. | |
| **4.** | <u>İnsan hüquq və azadlıqlarının məhdudlaşdırılması məsələsi</u><br><br>*Hüquqlara müdaxilənin legitim şərtləri* (qanunla nəzərdə tutulma tələbi; legitim (qanuni) məqsəd – milli təhlükəsizlik, ictimai asayiş və s.; zərurilik və mütənasiblik prinsipi; demokratik cəmiyyətdə zərurət meyarı).<br><br>*Fövqəladə hallar və hüquqların məhdudlaşdırılması (*derogasiya; məhdudlaşdırıla bilməyən hüquqlar (mütləq hüquqlar). | mühazirə - 2 saat<br>seminar - 1 saat |
| **5.** | <u>İnsan hüquqlarının müdafiəsi sahəsində milli mexanizmlər</u><br><br>*Məhkəmə müdafiəsi (*insan hüquqlarının məhkəmə yolu ilə müdafiəsi prinsipi; konstitusiya nəzarəti və Konstitusiya Məhkəməsinin rolu; ümumi yurisdiksiya məhkəmələrində insan hüquqlarının tətbiqi; inzibati məhkəmə icraatı və fərdin dövlət orqanlarına qarşı müdafiəsi; presedentlərin və beynəlxalq hüququn məhkəmələr tərəfindən tətbiqi).<br><br>*Prokurorluq orqanlarının rolu (*qanunçuluğa nəzarət funksiyası; cinayət prosesində insan hüquqlarının təminatı; işgəncə və pis rəftar iddialarının araşdırılması).<br><br>*Polisin (daxili işlər orqanlarının) öhdəlikləri* (saxlanılan şəxslərin hüquqları; işgəncənin qadağan olunması və prosedur təminatları; hüquqların pozulmasına görə intizam və cinayət məsuliyyəti).<br><br>*Ombudsman (milli insan hüquqları təsisatları) (*Ombudsman institutunun anlayışı və prinsipləri; şikayətlərin araşdırılması mexanizmi; tövsiyə xarakterli qərarların rolu; milli preventiv mexanizm (işgəncənin qarşısının alınması kontekstində)).<br><br>*Digər dövlət qurumları (*məlumatların mühafizəsi üzrə qurumlar; Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi; seçki komissiyalarının insan hüquqları ilə əlaqəsi). | mühazirə - 2 saat<br>seminar - 1 saat |

| | | |
|---|---|---|
| | *Vəkillik institutu və hüquqi yardım (*müdafiə hüququnun təmin olunmasında vəkillərin rolu; dövlət hesabına hüquqi yardım; hüquqi yardımın əlçatanlığı).<br><br>*Qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyəti (*monitorinq və hesabatlılıq funksiyası; strateji məhkəmə çəkişmələri (strategic litigation); maarifləndirmə və hüquqi dəstək fəaliyyəti).<br><br>*Media və ictimai nəzarət (*araşdırma jurnalistikasının rolu; ictimai rəyin formalaşması; ifadə azadlığı və hüquq müdafiəsi əlaqəsi; ifadə azadlığı və şəxsi həyata hörmət hüququ; informatorların hüquqlarının qorunması və bu sahədə İHAM-ın presedent hüququ).<br><br>*Qanunvericilik hakimiyyətinin rolu (*insan hüquqlarına uyğun qanunvericilik fəaliyyəti; parlament nəzarəti mexanizmləri; insan hüquqları üzrə parlament komitələri).<br><br>*İcra hakimiyyəti orqanları (*nazirliklərin və dövlət qurumlarının hüquq siyasəti; sosial və inzibati xidmətlərdə insan hüquqlarının tətbiqi; dövlət proqramları və strategiyalar). | |
| **6.** | <u>Milli azlıqların hüquqlarının müdafiəsi</u><br><br>Milli azlıqların anlayışı və hüquqi statusu. “Milli azlıq” anlayışı və fərqli hüquqi modellər. Beynəlxalq hüquqda milli azlıqların hüquqları. Dövlətlərin milli azlıqlara yanaşması: assimilyasiya, inteqrasiya və mədəni muxtariyyət.<br><br>BMT çərçivəsində qəbul edilən sənədlər. Avropa Şurasının standartları. Milli azlıqların hüquqlarının qorunması sahəsində milli qanunvericilik. Azərbaycan Respublikasının qanunvericiliyində milli azlıqların hüquqları. Təhsil, dil, mədəniyyət və siyasi iştirak hüquqları. Təcrübə və problemlər. | mühazirə - 2 saat<br>seminar - 1 saat |
| **7.** | <u>Qadınların hüquqlarının müdafiəsi və gender bərabərliyi</u><br><br>“Gender bərabərliyi” anlayışı. “Cins” və “gender” anlayışlarının fərqi. Gender stereotipləri və onların hüquqlara təsiri. Formal bərabərlik və faktiki (substantiv) bərabərlik. Müvəqqəti xüsusi tədbirlər (pozitiv ayrı-seçkilik) anlayışı. Qadın hüquqlarının insan hüquqları sistemində yeri və universal insan hüquqlarının ayrılmaz hissəsi olması. Qadınlara qarşı ayrı-seçkiliyin formaları. Hüquqi ayrı-seçkilik. Faktiki (de-facto) bərabərsizlik. Struktur və institusional maneələr. Kəsişən ayrı-seçkilik (məsələn, yaş, əlillik, etnik mənsubiyyətlə bağlı). Qadınlara qarşı zorakılıq insan hüquqları pozuntusu kimi. Məişət zorakılığı. Cinsi zorakılıq və təcavüz. İş yerində cinsi qısnama. Zərərli ənənəvi praktikalar (məsələn, məcburi nikah; | mühazirə - 2 saat<br>seminar - 1 saat |

| | | |
|---|---|---|
| | məcburi sterilizasiya; qadın sünnəti). Dövlətin "lazımi diqqət" (due diligence) öhdəliyi. Bərabər əməyə görə bərabər əməkhaqqı. Erkən nikah və təhsildən yayınma problemləri. Reproduktiv sağlamlıq hüquqları. Səhiyyə xidmətlərinə çıxış. Məlumatlandırılmış qərarvermə hüququ. Dövlətin öhdəlikləri. Qanunvericilikdə gender bərabərliyinin təmin edilməsi. Ayrı-seçkiliyə qarşı effektiv müdafiə mexanizmləri. Zorakılıq qurbanlarının müdafiəsi və sığınacaqlar. Maarifləndirmə və stereotiplərlə mübarizə. Avropa Şurası Nazirlər Komitəsinin Seksizmin qarşısının alınması və onunla mübarizəyə dair 2019-cu il tarixli Tövsiyəsi. Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya (CEDAW). CEDAW Komitəsinin rolu və Ümumi Tövsiyələri. Pekin Fəaliyyət Platforması. Avropa Şurasının 2011-ci il İstanbul Konvensiyası. Dayanıqlı İnkişaf Məqsədləri və gender bərabərliyi. Milli səviyyədə gender bərabərliyi mexanizmləri.<br>Müasir çağırışlar. Onlayn mühitdə qadınlara qarşı zorakılıq. Kiberzorakılıq (cyber-harassment; revenge porn). Silahlı münaqişələr və qadınların vəziyyəti. İqtisadi böhranların qadınlara təsiri. | |
| **8.** | <u>Uşaq hüquqlarının müdafiəsi</u><br><br>"Uşaq" anlayışının hüquqi tərifi. Uşaq hüquqlarının xüsusi müdafiəyə ehtiyacının əsaslandırılması. Uşaq hüquqları sisteminin dörd əsas prinsipi: ayrı-seçkiliyin yolverilməzliyi; uşağın maraqlarının üstünlüyü (best interests of the child); yaşamaq və inkişaf hüququ; uşağın fikrinin nəzərə alınması hüququ; uşaqların əsas mülki və siyasi hüquqları; uşaqların iqtisadi, sosial və mədəni hüquqları. Xüsusi müdafiə tələb edən uşaqlar. Uşaqlara qarşı zorakılıq və istismar. Ədalət mühakiməsində uşaq hüquqları. Barnahus modeli. Uşaqların cinsi istismar və cinsi zorakılıqdan müdafiəsi. Uşaq pornoqrafiyası, uşaq fahişəliyi. | mühazirə - 2 saat<br>seminar - 1 saat |
| **9.** | <u>Ayrı-seçkiliklə mübarizə</u><br><br>Bərabərlik prinsipi. "Ayrı-seçkilik" anlayışının hüquqi tərifi. Formal bərabərlik və faktiki (substantiv) bərabərlik. Birbaşa ayrı-seçkilik. Dolayı ayrı-seçkilik. Təqib (harassment). Ayrı-seçkiliyə təhrik və göstəriş. Mənfi stereotiplər və struktur ayrı-seçkilik. Qorunan əsaslar (grounds of discrimination). Ayrı-seçkilik və nifrət motivli hüquq pozuntuları. Sübut və prosessual məsələlər. "Prima facie" ayrı-seçkilik anlayışı. Sübut yükünün cavabdeh tərəfə keçməsi. Statistik sübutların rolu. | mühazirə - 2 saat<br>seminar - 1 saat |
| **10.** | <u>Qaçqın və miqrantların hüquqlarının müdafiəsi</u><br><br>"Qaçqın" və "miqrant" anlayışlarının hüquqi fərqi. Sığınacaq axtaran şəxslər (asylum seekers). Daxili məcburi köçkünlər. | mühazirə - 2 saat<br>seminar - 1 saat |

| | | |
|---|---|---|
| | Qaçqınların əsas hüquqları: sığınacaq və geri qaytarılmama prinsipi (non-refoulement). Təhlükəsizlik və işgəncədən qorunma hüququ. Təhsil və səhiyyə hüququ. Sosial təminat və əmək hüquqları. Ailə birliyi və uşaqların hüquqları. Miqrantların hüquqları: iş və əmək şəraiti; sosial xidmətlərə və səhiyyəyə çıxış; hüquqi yardım və məhkəmə müdafiəsi; ayrı-seçkiliyin qadağan olunması; təhsil və mədəniyyət hüquqları.<br>1951-ci il iyulun 28-də Cenevrədə imzalanmış Qaçqınların statusu haqqında Konvensiya və 1967-ci il Protokolu. Miqrasiya üzrə BMT-nin Müqavilələri və Tövsiyələri. Avropa İnsan Hüquqları Konvensiyası (maddə 3, 8 və 13). | |
| **11.** | <u>Silahlı münaqişələr zamanı insan hüquqlarının müdafiəsi</u><br><br>"Silahlı münaqişə" anlayışı və təsnifatı. Beynəlxalq və daxili silahlı münaqişələr. Beynəlxalq hüquq və humanitar hüquq prinsipləri. Silahlı münaqişələrdə insan hüquqlarının qorunmasının çətinlikləri. İnsan ləyaqətinə hörmət prinsipi. Ayrı-seçkilik və qorunmasız (həssas) şəxslərə qarşı hücumun qadağan olunması. Mütənasiblik və zərurilik prinsipi. Qorunan şəxslərin və obyektlərin statusu. Qorunan şəxslər. Sülh şəraitində olmayan mülki şəxslər. Yaralı və xəstələr. Hərbi əsirlər. Qadınlar və uşaqlar. Humanitar yardım işçiləri. Beynəlxalq humanitar hüquq və insan hüquqlarının qarşılıqlı əlaqəsi. İki sistemin (humanitar hüquq və insan hüquqları) paralel tətbiqi. Cenevrə Konvensiyaları və onlara əlavə edilmiş protokollar. Münaqişə zamanı hüquqların deroqasiya və məhdudlaşdırılması məsələsi. | mühazirə - 2 saat<br>seminar -1 saat |
| **12.** | <u>İnsan Hüquqları üzrə Avropa Məhkəməsi və onun presedentlərinin insan hüquqlarının müdafiəsində rolu</u><br><br>Məhkəmənin yaranması tarixi. Məhkəmənin yurisdiksiyası (ratione loci, ratione temporis, ratione personae, ratione materiae). İşə baxan məhkəmə tərkibləri (təkhakimlik baxış, Komitə, Palata, Böyük Palata). Məhkəməyə şikayətin göndərilməsi üzrə tələblər. Avropa İnsan Hüquqları Konvensiyasının Məhkəmə tərəfindən şərhi üsulları. İHAM-ın daxili qanunvericiliyə təsiri. Qərarların icrası. | mühazirə - 4 saat<br>seminar - 2 saat |
| **13.** | <u>İnsan hüquqlarının müdafiəsi üzrə beynəlxalq mexanizmlər</u><br><br>BMT sistemində insan hüquqları mexanizmlərinin anlayışı (İnsan hüquqları üzrə beynəlxalq standartların BMT kontekstində rolu; BMT-nin insan hüquqları üzrə mexanizmlərinin əsas prinsipləri; proaktiv və reaktiv mexanizmlər (monitorinq və şikayət mexanizmləri)).<br><br>İnsan Hüquqları Şurası (UN Human Rights Council). Quruluş və mandat. Universal Dövri İcmal (Universal Periodic Review – UPR) mexanizmi. BMT-nin müstəqil ekspertləri və xüsusi | mühazirə - 4 saat<br>seminar - 2 saat |

| | | |
|---|---|---|
| | məruzəçilər. Hesabatlılıq və tövsiyələrin icrası. Müqavilə orqanları – BMT komitələri. Fəaliyyət mexanizmləri. Dövlət hesabatları və Komitə tərəfindən qiymətləndirmə. İctimai iştirak və qeyri-hökumət təşkilatlarının rolu. Tövsiyələrin tətbiqi və monitorinq. Şikayət mexanizmləri və fərdi şikayətlər. | |
| **14.** | <u>İnsan hüquqlarının müdafiəsi üzrə regional mexanizmlər</u><br><br>Regional mexanizmlərin anlayışı və məqsədi. Regional institutların insan hüquqlarının qorunmasında rolu. Avropa İnsan Hüquqları Konvensiyası (AİHK). Avropa Şurasının komitə və ekspert mexanizmləri. Amerika sistemi (Inter-American Human Rights System). Amerika İnsan Hüquqları Konvensiyası. Amerika İnsan Hüquqları Komissiyası (IACHR). Amerika İnsan Hüquqları Məhkəməsi. Afrika sistemi (African Human Rights System). Afrika İnsan və Xalq Hüquqları Konvensiyası. Afrika İnsan və Xalq Hüquqları Komissiyası. Afrika İnsan Hüquqları Məhkəməsi. Şikayət mexanizmləri və monitorinq funksiyası. Avropa İttifaqının Fundamental Hüquqlar Xartiyası. | mühazirə - 3 saat<br>seminar - 2 saat |
| **15.** | <u>İnsan hüquqlarının müdafiəsində müasir çağırışlar (iqlim dəyişikliyi və süni intellekt)</u><br><br>Qloballaşmanın və texnoloji inkişafın insan hüquqlarına təsiri. Yeni təhlükələr və risklər: həm fiziki, həm də rəqəmsal sahədə. İnsan hüquqlarının müdafiəsində proaktiv və adaptiv yanaşma. İqlim dəyişikliyi və insan hüquqlarının yaşamaq hüququna təsiri. Sağlamlıq hüququ və ekoloji təhlükələr. Qida, su və mənzil hüquqlarına təhlükə. Əlilliyi və sosial həssaslığı olan qruplara təsir. Qaçqınlıq, iqlim problemləri və məcburi köç (climate refugees). İqlim mübahisələrində (climate litigation) “qurban” anlayışı. İHAM-ın iqlim dəyişikliyi üzrə presedenti. | mühazirə - 3 saat<br>seminar - 1 saat |